# ABDULLA ŞAİQİN DOĞMA VƏTƏNİ SARVAN ELİNDƏ MUZEYİ AÇILDI

Görkəmli Azərbaycan ədibi, maarifçisi və ictimai xadimi, əməkdar incəsənət xadimi Abdulla Mustafa oğlu Talıbzadənin — Abdulla Şaiqin dünyaya göz açdığı Sarvanda (indiki Marneuli şəhəri) doğulduğu ev bərpa edilmiş, burada onun ev-muzeyi yaradılmış və barelyefi qoyulmuşdur. Bütün bu tədbirlər Abdulla Şaiqin 120 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamına uyğun olaraq görülmüşdür.

Bu tədbirləri Şəmkir rayon icra hakimiyyəti və şəmkirli xeyriyyəçilər həyata keçirmişlər. Onların yardımı ilə ev-muzeyin yerləşdiyi küçə də abadlaşdırılmışdır.

Abdulla Şaiqin ev-muzeyinin açılışı ilə əlaqədar Gürcüstan ictimaiyyəti nümayəndələrinin və Azərbaycandan gəlmiş qonaqların iştirakı ilə təntənəli mərasim keçirildi. Mərasimi Marneulinin meri Rafiq Hacıyev açaraq, ədibin ev-muzeyinin yaradılmasına və barelyefinin qoyulmasına yardım göstərdiklərinə görə şəmkirlilərə təşəkkürünü bildirdi. Kvemo Kartli — Borçalı bölgəsinin qubernatoru Levan Mamaladze əslən Gürcüstandan olan Azərbaycanın tanınmış elm, mədəniyyət, ədəbiyyat xadimlərinin doğma yurdlarında həmişə dərin ehtiramla yad edildiyini, küçələrə onların adlarının verildiyini, məzarlarının abadlaşdırıldığını, ev-muzeylərinin açıldığını və yaşadıqları binalarda barelyeflərinin qoyulduğunu, bu işlərin gələcəkdə də görüləcəyini söylədi. Şəmkir rayon icra hakimiyyətinin başçısı Aslan Aslanov Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstanda yaşayan soydaşlarımıza daim qayğı və diqqət göstərdiyini, onların görkəmli nümayəndələrinin adlarının əbədiləşdirilməsi və yubileylərinin layiqincə qeyd edilməsi üçün sərəncam və fərmanlar verdiyini vurğuladı və xatırlatdı ki, dövlətimizin başçısı Abdulla Şaiqin yubileyinin də keçirilməsi haqqında sərəncam imzalamışdır.

Sonra şair Nəriman Həsənzadə, Marneuli rayon ağsaqqallar şurasının sədri Kamal Məmmədov, "Gürcüstan" qəzetinin baş redaktoru Süleyman Süleymanov, şair Osman Dərviş, yazıçı-publisist Əhməd İsayev, Gürcüstan parlamentinin deputatı Azər Süleymanov, "Borçalı" qəzetinin (Bakı) baş redaktoru Azadə-Taleh Abbasqızı və başqaları çıxış edərək, şair, nasir və dramaturq kimi Abdulla Şaiqin ötən əsrdə Azərbaycan ədəbiyyatının inkişafında, xüsusən uşaqlar üçün tərbiyəvi əhəmiyyətli ədəbiyyatın yaradılmasında xidmətlərindən, istedadlı tənqidçi və pedaqoq kimi coşğun fəaliyyətindən, dünya klassiklərinin bir çox əsərlərini ana dilimizə yüksək sənətkarlıqla çevirdiyindən danışdılar.

Axırda Abdulla Şaiqin oğlu — Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Kamal Talıbzadə söz alaraq, atasının adının doğma elində əbədiləşdirildiyinə, ev-muzeyinin yaradıldığına və barelyefinin qoyulduğuna görə prezidentlər Heydər Əliyevə və Eduard Şevardnadzeyə, bütün bu işlərdə əməyi olan insanlara və eloğlularına ailəsi və qohumları adından təşəkkür etdi.

Şahismayıl MƏMMƏDOV
AzərTAC-ın xüsusi müxbiri
MARNEULİ